**Bakıda yeni iqlim maliyyəsi hədəfi üzrə tarixi razılaşmanın əldə olunması üçün gözəl fürsət yaranıb - RƏY**

Azərbaycanın dünyanın ən mötəbər tədbirlərindən biri olan COP29-a ev sahibliyi etməsi Prezident İlham Əliyevin uzaqgörən, müdrik siyasətinin nəticəsidir. Dünyanın qlobal problemlərindən birinin müzakirə edildiyi böyükmiqyaslı konfransın Bakıda təşkili ölkəmizin Qoşulmama Hərəkatına sədrliyi və BMT Təhlükəsizlik Şurasına üzvlüyündən sonra xarici siyasətimizin ən böyük uğurudur. Bu tədbirin yüksək səviyyədə keçirilməsi, həmçinin Azərbaycana qarşı çirkin kampaniya aparan bəzi üzdəniraq qüvvələrə ən tutarlı cavabdır.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Məşhur Məmmədov deyib.

Deputat bildirib ki, ölkəmizin 2016-cı ildə Paris Sazişinə qoşulması beynəlxalq ictimaiyyət tərəfindən yüksək qiymənləndirilib. Azərbaycanın COP29-a ev sahibliyi etməsinə 200 ölkənin yekdil qərar verməsi də məhz bunun sübutudur.

Azərbaycanın COP29-a ev sahibliyini növbəti uğur hekayəsi kimi dəyərləndirən M.Məmmədov tədbirdə iki yüzə yaxın ölkədən yetmiş mindən çox qonağın iştirak etməsini və onların arasında 80 prezident, vitse-prezident, Baş nazir olmasını mühüm amil olduğunu qeyd edib.

“Tədbir çərçivəsində beynəlxalq maliyyə korporasiyaları və bank strukturlarının iqlim dəyişikliklərinin fəsadlarına qarşı mübarizə məqsədilə öz maliyyə töhfələrini artıracaqları barədə açıqlamaları nikbinlik vəd edir. Bu, COP29-dan əsas gözlənti olan yeni iqlim maliyyəsi hədəfi üzrə tarixi razılaşmanın əldə olunması istiqamətində danışıqlar üçün əlverişli mühit yaradır.

Bundan başqa, COP29-un ilk günündə Paris sazişinin 6.4 maddəsi üzrə razılaşma ilə bağlı irəliləyişin əldə edilməsi də böyük nailiyyətdir”, - deyə deputat vurğulayıb.

M.Məmmədov COP29 çərçivəsində milli pavilyonların təşkilinin də əhəmiyyətini qeyd edib. Bildirib ki, pavilyonlarda ölkələrin mədəniyyəti, tarixi və təbiəti ilə formalaşan ənənəvi dəyərlər nümayiş etdirilir. Bu da tanışlıq baxımından çox önəmlidir.

“Azərbaycan COP29-un sədri kimi səylərini və təşəbbüslərini inkişaf etmiş və inkişafda olan ölkələr arasında konsensusun bərqərar olunmasına, Qlobal Cənubla Şimal arasında əlaqələrin qurulmasına yönəldib. Ölkəmiz qlobal iqlim dəyişmələri ilə mübarizəyə öz töhfəsini verməkdə qərarlıdır”, - deyə Məşhur Məmmədov qeyd edib.

**AZƏRTAC**
**2024, 15 noyabr**